BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ

# BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİNİN STRATEJİ İNKİŞAF PROQRAMI (SİP) (2020-2023-cu illər)

**Xırdalan – 2020**

Bakı Mühəndislik Universitetinin
Himayəçilər Şurasının
2020-ci il 11 Fevral
tarixli iclasının qərarı ilə
təsdiq edilmişdir.

**Bakı Mühəndislilik Universitetinin 2020-2023 illər üçün**

**Strateji İnkişaf Proqramı (SİP)**

## 1. Giriş

“Bakı Mühəndislik Universiteti” publik hüquqi şəxs (bundan sonra - BMU) Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2429 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində yaradılmışdır.

Universitetin yaradılmasının əsas məqsədi Azərbaycan Respublikasında mühəndis texnologiyalarının tədrisinin təkmilləşdirilməsini və bu sahədə yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

Müasir dövrdə təhsilin iqtisadi həyatda artan rolu Azərbaycanda prioritet istiqamət kimi bilik iqtisadiyyatının formalaşdırılmasını və insan kapitalının inkişafına dövlət dəstəyinin davam etdirilməsini, ümumən ölkədə ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasını müstəsna dərəcədə əhəmiyyətli edir.

Azərbaycanda insan kapitalının inkişafı üzrə yeni uzunmüddətli çağırışlar, rəqabətədavamlı məzun və kadr hazırlığının beynəlxalq standartlara uyğun aparılması və təkmilləşdirilməsi zərurəti bu Strateji İnkişaf Proqramının hazırlanması üçün əsas təşkil etmişdir.

BMU-nun inkişafına dair 2020-2023-cu illər üçün Strateji İnkişaf Proqramı (bundan sonra – SİP) universitetin inkişaf məqsədlərini müəyyənləşdirən və bu məqsədlərə çatmaq üçün tədbirləri əhatə edən əsas sənəddir.

**Universitetin missiyası,** təhsilin bütün səviyyələri və formaları üzrə dünya standartlarına uyğun təhsil, tədqiqat və innovasiya sahəsində fundamental biliklərə, tədqiqat vərdişlərinə yiyələnmiş, milli və beynəlxalq əmək bazarında rəqabətədavamlı, vətənpərvərlik ruhunda tərbiyə edilmiş yüksək ixtisaslı məzun və kadr hazırlamaqdan ibarətdir.

**Universitetin gələcəyə baxışı (viziyonu),** fəaliyyət sahəsi üzrə ölkənin aparıcı universitetlərindən birinə çevrilməkdir.

**Universitetin inkişaf siyasəti**, tədris prosesinin, tədris metodiki işlərin, elmi-tədqiqat fəaliyyətlərinin effektivliyinin artırılması, universitetin maliyyə-iqtisadi stabilliyinin təmini, maddi-texniki infrastrukturun inkişafı, kadr potensialının gücləndirilməsi, elmi-pedaqoji və tədris-köməkçi işçilərinin motivasiya mexanizminin təkmilləşdirilməsi, məzunların işlə təminatının artırılmasına dəstək olmaqdır.

## 2. Strateji İnkişaf Proqramının məqsədi

Strateji İnkişaf Proqramının hazırlanmasının məqsədi, ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, işəgötürənlərlə sıx əməkdaşlıq edərək əmək bazarının daim inkişaf edən tələblərinə uyğun mütəxəssislərin hazırlanması, universitetdə tədris prosesinin, məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması, akademik potensialının gücləndirilməsi, elmi-tədqiqat və innovasiya fəaliyyətinin gücləndirilməsi, universitet-iş dünyası əlaqələrinin genişləndirilməsi, sosial və ictimai fəaliyyətlərinin təkmilləşdirilməsidir.

## 3. Strateji İnkişaf Proqramının icrasında istifadə olunan prinsiplər

Strateji İnkişaf Proqramının icrası zamanı və müəyyən edilən məqsədlərə çatmaq üçün BMU aşağıdakı prinsipləri qəbul edir:

- **şəffaflıq və hesabatlılıq:** işlərin şəffaf həyata keçirilməsi və ictimaiyyətin məlumatlandırılması;
- **sistemlilik və planlılıq:** tədbirlərin yekun nəticəyə xidmət edən ardıcıl, məqsədyönlü və kompleks islahatlar formasında planlı şəkildə həyata keçirilməsi;
- **səmərəlilik:** təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;
- **innovasiyaların tətbiqi:** idarəetmədə, elmi tədqiqatların yerinə yetirilməsində və tədris prosesində ən son yeniliklərin tətbiqi və innovativ yanaşmanın həyata keçirilməsi;
- **fundamentallıq**: professor-müəllim heyətinin fənn üzrə, pedaqoji-psixoloji, sosial-humanitar və ümumi mədəni hazırlığının yüksək keyfiyyətinin təmin olunması və tədrisin elmi əsaslandırılması;
- **bərabərlik:** bütün təhsilalanların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;

- **akademik azadlıq**: akademik heyətin və tədqiqatçıların tədqiqat, tədris və sosial xidmət fəaliyyətlərində sərbəst olması;

- **peşəkar etika:** akademik etikanın qoruması və müəlliflik hüquqlarına hörmətlə yanaşılması;

- **keyfiyyətlilik:** təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;

## 4. BMU-nun güclü və zəif tərəfləri, imkanlar və təhlükələr

***<u>Güclü cəhətlər</u>:***

- Universitetin publik hüquqi şəxs statusunda olması;
- Universitetin müvafiq maddi-texniki bazaya və infrastruktura malik olması;
- müasir avadanlıqlarla təchiz olunmuş tədqiqat laboratoriyaların mövcudluğu;
- Texnoparkın və İnnovasiya Mərkəzinin mövcudluğu;
- yataqxana infrastrukturun olması;
- Elektron Universitet İdarəetmə Sisteminin olması;
- Universitetin professor-müəllim heyətinin orta yaşının 45 olması;
- professor-müəllim heyətinin seçimində beynəlxalq təcrübə, xarici dil və elmi-tədqiqat bacarıqlarının prioritet götürülməsi;
- Universitetdə ingilis dilində tədrisin aparılması və genişmiqyaslı beynəlxalq əlaqələrin mövcudluğu;
- çoxsaylı tələbə cəmiyyətlərinin və dərnəklərin mövcudluğu;
- məzunlarla əlaqə və karyera fəaliyyətlərinin səmərəli təşkili;
- yerli və xarici ölkələrdə təcrübə imkanları;
- impakt faktorlu məqalələrə görə mükafatlandırma sisteminin mövcudluğu;
- "Journal of Baku Engineering University" elmi jurnallarının AAK tərəfindən elmi ad və dərəcə verilərkən tövsiyə edilən dövri nəşrlər siyahısına daxil edilməsi.

***<u>Zəif cəhətlər</u>:***

- Universitetin infrastrukturunun təkmilləşdirilməsi templərinin aşağı olması;
- tələb olunan sayda auditoriya və tədris laboratoriyaların olmaması;
- tədris və elmi-tədqiqat işlərində istifadə olunan texnoloji avadanlıqların bir hissəsinin fiziki və mənəvi köhnəlməsi;

- gənc alim və mütəxəssislər, eləcə də əcnəbi professor-müəllim heyəti üçün xidməti yaşayış evlərinin olmaması;
- kitabxana və yeməkxana üçün ayrıca binaların, qapalı idman zalının olmaması və oğlanlar üçün yataqxana binasının yetərsizliyi;
- təlim prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə imkanlarının məhdud olması;
- beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməməsi;
- yüksək ixtisaslı elmi-pedaqoji və elmi kadrların hazırlanması işinin müasir standartlar səviyyəsində qurulmaması;
- professor-müəllim heyəti içərisində elmi dərəcə və elmi adı olanların xüsusi çəkisinin azlığı;
- gənclərin xaricdə doktorantura səviyyəsi üzrə təhsil almalarına cəlb edilməsi imkanlarından tam istifadə olunmaması;
- elmi-tədqiqat strukturlarının, elmi araşdırma proqramlarının və bütövlükdə elmi araşdırmalar üzrə fəaliyyətin tələb olunan səviyyədə olmaması;
- yerli və əcnəbi professor-müəllim heyətinin iştirakı ilə qrant əsaslı elmi-tədqiqat proqramlarının həyata keçirilməməsi;
- dövlət və özəl sektordan elmi tədqiqatlara yönələn sifarişlərin alınmaması;
- işəgötürənlərlə nəticəyə əsaslanan əməkdaşlıq əlaqələrinin tələb olunan səviyyədə qurulmaması;
- alternativ gəlir əldəetmə məqsədli xidməti mərkəzinin olmaması;
- əlavə təhsil imkanlarından istifadə olunmaması;
- Universitetin bazasında Lisey, Kollec, Peşə məktəblərinin olmaması;
- onlayn və distant təhsil infrastrukturunun olmaması;
- əməkdaşların fəaliyyətinin diferensial qiymətləndirmə sisteminin olmaması;
- İdarəetmədə Beynəlxalq Keyfiyyət İdarəetmə Sistemi (İSO) sertifikatının olmaması;
- Aşağı balla qəbul olunmuş tələbələrin sayının gedərək artması;
- beynəlxalq mübadilə proqramlarında əməkdaşların və tələbələrin iştirakının zəifliyi;
- tələbələr içərisində əcnəbi tələbələrin xüsusi çəkisinin az olması;
- əməkdaşlar içərisində əcnəbi mütəxəssis və ekspertlərin xüsusi çəkisinin az olması;
- Universitetin şəhər mərkəzindən uzaqda yerləşməsi və nəqliyyat imkanlarının məhdudluğu.

***İmkanlar:***

- cəmiyyətin inkişafında təhsilin rolunun artması;
- Azərbaycanın beynəlxalq nüfuzu, ictimai-siyasi sabitliyi, əlverişli coğrafi mövqeyi, multikultural mühitinin mövcudluğunun olması əcnəbi tələbələrin ölkəyə marağın artması;
- dövlətin təhsil sisteminə diqqət və qayğısının daim artması;
- 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramının tətbiq olunması;
- dövlət sifarişi əsasında qəbul planının və dövlət sifarişi ilə təhsilalan tələbələrə görə dövlət büdcəsindən ödənilən təhsil xərclərinin artırılması;
- BMU-nun qabaqcıl universitet kimi cəmiyyət tərəfindən qəbul olması;
- iş dünyasının universitetlərlə əməkdaşlığa artan marağı;
- qanunvericiliyin təhsilin müxtəlif səviyyə və formaları üzrə fəaliyyətə imkan verməsi.

***Təhlükələr:***

- ali təhsil pilləsində təlim-tədris prosesinin beynəlxalq standartlara uyğun olmaması;
- ali təhsil müəssisələrimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkili edilməməsi;
- xaricdə təhsil imkanlarının genişlənməsi;
- ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə təhsil proqramlarının tətbiq edilməməsi;
- ali təhsil müəssisələri arasında rəqabətin artması;
- professor-müəllim heyətinin akademik bacarıqlarının müasirləşdirilməməsi;
- Universitet büdcələrinin əsas hissəsinin təhsil haqları hesabına formalaşması;
- bəzi ixtisasların qlobal trendlərə cavab verməməsi;
- təhsil, tədqiqat və biznes əlaqələrinin zəifliyi;
- bəzi ölkələr tərəfindən diplomların tanınmaması.

## 5. BMU-nun strateji istiqaməti və hədəfləri

| İstiqamətlərin və hədəflərin adları | Ölçü vahidi | Planlaşdırma dövrü | | | |
|---|---|---|---|---|---|
| | | 2020 | 2021 | 2022 | 2023 |
| **Strateji istiqamət 1: Universitet infrastrukturun təkmilləşdirilməsi** | | | | | |
| 1.1. Tədris, kitabxana, yataqxana binalarının və qapalı idman zalının tikintisi | ədəd | 1 tədris | 1 kitabxana | 2 yataqxana və idman zalı | 1 kollec, lisey, texniki peşə məktəbi binası |
| 1.2. Yeməkxananın rekonstruksiyası və istehsalat bazasının genişləndirilməsi | | | + | | |
| 1.3. Gənc alimlər və mütəxəssislər üçün xidməti yaşayış evlərinin inşası | | | | | + |
| 1.4. Peşəkar təhlükəsizlik xidmətinin təşkili və video müşahidə sisteminin təkmilləşdirilməsi | | + | + | | |
| 1.6. Elmi-tədqiqat laboratoriyaların təşkili | ədəd | 1 | 2 | 2 | 2 |
| 1.7. Kitabxananın elektron kataloqunun sistemləşdirilməsi və yeni texnologiyalar əsasında İRBİS və s. proqramların tətbiqi | | | + | | |
| 1.8. ISO 9001 idarəetmə sisteminin qurulması | | Hazırlıq | Müraciət | Monitorinq | Sertifikatın alınması |
| 1.9. İqtisadiyyat və Biznes mərkəzinin qurulması | | + | | | |
| 1.10. Mühəndislik üzrə elmi-tədqiqat mərkəzinin qurulması | | | + | | |
| 1.11. Olimpiada mərkəzinin təşkili (fənn, ixtisas və proqramlaşdırma üzrə) | | + | | | |
| 1.12. QS-WUR beynəlxalq reytinqində universitetin yeri | | 1000+ | 1000+ | 800+ | 800+ |
| 1.13.İxtisasların beynəlxalq akkreditasiyası | | - | 1 | 1 | 1 |
| 1.14. Beynəlxalq imtahan mərkəzinin qurulması (TOEFL, GRE, GMAT, IELTS, SAT və s.) | | + | | | |
| 1.15. Universitetin yerli akkreditasiyadan keçməsi | | + | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1.16. Elektron və distant təhsil infrastrukturunun qurulması | | | | + | |
| 1.17. Tədris korpuslarının əsaslı təmiri və rekonstruksiyası | | | | + | |
| 1.18. BMU-nun nəzdində lisey, kollec və texniki-peşə məktəblərin açılması | | | | | + |
| **Strateji istiqamət 2: Tədris prosesinin təkmilləşdirilməsi** | | | | | |
| 2.1. İxtisaslaşmış tədris laboratoriyasının qurulması (30-40 nəfərlik) | | 2 | 2 | 1 | 1 |
| 2.2. Tələbə qəbulu | nəfər | 1435 | 1500 | 1550 | 1600 |
| 2.3. Professor və müəllim heyətinin (PMH) elmi dərəcə və adların alınması | nəfər | 5 | 5 | 5 | 5 |
| 2.4. İxtisaslaşdırılmış profil üzrə yeni ixtisasların tətbiq edilməsi | ədəd | 1 | 2 | 2 | 2 |
| 2.5. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq istəyən tələblərlə üçtərəfli müqavilələrin bağlanması | nəfər | 5 | 10 | 10 | 10 |
| 2.6. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almış məzunların BMU-da işə qəbulu | nəfər | - | - | 5 | 10 |
| 2.7. Kvalifikasiyalarının artırılması məqsədi ilə təlimlərə cəlb olunmuş professor müəllim heyətinin artırılması | nəfər | 50 | 60 | 70 | 80 |
| 2.8. Tədris proqramlarının təkmilləşdirilməsi, nəticə əsaslı təhsil proqramlarının tətbiqi | % | 10 | 15 | 20 | 25 |
| 2.9. Tədris proqramlarına uyğun dərsliklərin hazırlanması | ədəd | 5 | 10 | 15 | 20 |
| 2.10. Tədris prosesində müasir təhsil texnologiyalarının tətbiqi | % | 50 | 55 | 60 | 65 |
| 2.11. Tələbələrin praktiki biliklərinin artırılması, ixtisaslardan asılı olaraq praktiki dərslərinin sayının artırılması | % | 15 | 20 | 25 | 30 |
| 2.12. onlayn və distant təhsil infrastrukturunun təşkili | | | | | + |
| 2.13. Fasiləsiz təhsil sisteminin qurulması | | | | | + |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Strateji istiqamət 3: Elmi-tədqiqat və innovasiya fəaliyyətin inkişaf etdirilməsi** | | | | | |
| 3.1. Universitetin Texnoparkın nəzdində Texnoloji Transfer və Patent Ofisinin qurulması | | | + | | |
| 3.2. Beynəlxalq elmi jurnallarda məqalə sayı | ədəd | 35 | 35 | 35 | 35 |
| 3.3. Dövrü elmi jurnalların beynəlxalq elemetrik bazalara daxil olması | ədəd | 2 | 2 | 2 | 2 |
| 3.4. “Scopus” platforması, “Science Direct” məlumat bazası və çap məhsullarına çıxış imkanı | | + | + | + | + |
| 3.5. Beynəlxalq və respublika əhəmiyyətli elmi konfransların təşkili | ədəd | 4 | 5 | 5 | 5 |
| 3.6. Simpozium və seminarların təşkili | ədəd | 10 | 10 | 10 | 10 |
| 3.7. İnnovasiya və ixtiraların patentləşdirilməsi | ədəd | 2 | 2 | 3 | 4 |
| 3.8. Beynəlxalq konfranslarda iştirakın maliyyələşdirilməsi | % | 10 | 10 | 10 | 10 |
| 3.9. PMH-nin monoqrafiya və dərs vəsaitlərin nəşri | ədəd | 4 | 5 | 6 | 6 |
| 3.10. Kitabxana fondunun zənginləşdirilməsi | ədəd | 200 | 250 | 300 | 350 |
| 3.11. Buraxılış və dissertasiya işlərinə ikili elmi rəhbərlik sisteminin tətbiq edilməsi | | | + | | |
| 3.12. Fundamental və tətbiqi elmlərin spektrinin genişləndirilməsi | | | | + | |
| 3.13. Elmi Tədqiqat İşlərinin (ETİ) AMEA-nın instutları, layihə təşkilatları, sənaye və digər müəssisələr ilə birgə təşkili | | 2 | 3 | 4 | 5 |
| **Strateji istiqamət 4: Beynəlxalq əlaqələrinin inkişafı** | | | | | |
| 4.1. Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrin sayını artırılması | ədəd | 5 | 5 | 5 | 5 |
| 4.2. Beynəlxalq mübadilə proqramlarında PMH-nin iştirak sayının artırılması | nəfər | 5 | 8 | 10 | 12 |
| 4.3. Beynəlxalq mübadilə proqramlarında tələbələrin iştirak sayının artırılması | nəfər | 5 | 8 | 10 | 12 |
| 4.4. Beynəlxalq layihələrdə qrant qalibi kimi iştirak sayının artırılması | ədəd | - | 1 | 1 | 2 |
| 4.5. Beynəlxalq layihələrdə tərəfdaş kimi iştirak sayının artırılması | ədəd | 1 | 1 | 2 | 2 |
| 4.6. Əcnəbi tələbələrin sayının artırılması | % | 2 | 2 | 3 | 3 |
| 4.7. Əcnəbi tələbələrin təmsil etdiyi ölkələrin sayı | ədəd | 21+2 | 23+2 | 25+2 | 27+2 |
| 4.8. Beynəlxalq təhsil sərgilərində | ədəd | 2 | 2 | 2 | 2 |

| | | | | | |
|---|---|---|---|---|---|
| iştirak | | | | | |
| 4.9. Xarici tərəfdaş universitetlər ilə birlikdə yay məktəblərinin təşkili | ədəd | 1 | 2 | 2 | 2 |
| 4.10. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində beynəlxalq ikili diplom proqramların tətbiqi | ədəd | - | 1 | 1 | 1 |
| 4.11. Əcnəbi mütəxəssis və ekspertlərin tədris prosesinə cəlb edilməsi | % | 1 | 2 | 3 | 3 |
| 4.12. Əcnəbi professor-müəllim heyətinin iştirakı ilə qrant əsaslı elmi-tədqiqat proqramlarının həyata keçirilməsi | ədəd | 3 | 5 | 5 | 5 |
| **Strateji istiqamət 5: Müəssisələrlə Əlaqələr və Karyeranın inkişafı** | | | | | |
| 5.1. Elektron Məzun Sisteminin qurulması | | + | | | |
| 5.2. Müəssisələrlə əməkdaşlıq müqavilələrin sayının artırılması | % | 10 | 10 | 10 | 10 |
| 5.3. Məzunlarla iş yerlərində görüşlərin keçirilməsi fəaliyyətinin artırılması | % | 20 | 20 | 20 | 20 |
| 5.4. İş dünyası ilə kafedralar arasında koordinasiya sisteminin qurulması | | | + | | |
| 5.5. Müəssisələrdə baza kafedraların yaradılması | ədəd | | | 1 | 1 |
| 5.6. Dissertasiya mövzularının müəyyənləşdirilməsində iş dünyasından sifarişlərin qəbulu | ədəd | 5 | 5 | 10 | 10 |
| 5.7. İş tapan məzunların nisbəti | % | 55 | 60 | 65 | 70 |
| 5.8. BMU Məzun Assosiasiyasının qurulması | | | + | | |
| 5.9. İşəgötürənlər-universitet-təhsil alanlar arasında işlək mexanizmin qurulması | | | | + | |
| **Strateji istiqamət 6: Sosial və ictimai fəaliyyətlərin təkmilləşdirilməsi** | | | | | |
| 6.1. Əməkdaşlar üçün yay istirahət mərkəzinin təsis edilməsi | | + | + | + | + |
| 6.2. BMU əməkdaşları üçün sosial-mədəni tədbirlərin təşkili | ədəd | 10 | 10 | 10 | 10 |
| 6.3. BMU tələbələr üçün sosial-mədəni tədbirlərin təşkili | ədəd | 30 | 35 | 40 | 45 |
| 6.4. Veb saytın təkmilləşdirilməsi | | + | + | + | + |
| 6.5. Korporativ səviyyədə facebook, twitter, instagram, youtube istifadəçilərinin və reklam sayının artırılması | % | 10 | 10 | 10 | 10 |
| 6.6. BMU TV proqram sayının artırılması | ədəd | 10 | 15 | 20 | 25 |
| 6.7. BMU TV-nin fəaliyyətinin | % | 10 | 10 | 10 | 10 |

| | | | | | |
|---|---|---|---|---|---|
| gücləndirilməsi, universitet, fakültə, ixtisas və tələbə həyatına yönələn verlişlərin hazırlanması | | | | | |
| 6.8. Universitetin fəaliyyətinin, açılan yeni ixtisasların daha geniş auditoriyaya tanıdılması istiqamətində davamlı tədbirlərin təşkili | ədəd | 20 | 20 | 20 | 20 |
| 6.9. İstedadlı gənclərin BMU-ya cəlb edilməsi üçün xüsusi proqramların işlənməsi. | | + | + | + | + |
| 6.10. Universitetin professor-müəllim heyətinin ümumrespublika televiziya kanallarında və radio verlişlərində iştirakının, çıxışlarının təmin olunması, eləcə də dövri mətbuatda, elektron mediyada yazıların, elmi-publisistik nəşrlərinin sayının artırılması | % | 5 | 5 | 5 | 5 |
| **Strateji istiqamət 7: Maliyyə-iqtisadi fəaliyyətlərin təkmilləşdirilməsi** | | | | | |
| 7.1. BMU-nun strukturunun və ştatlarının optimallaşdırılması | | | + | | |
| 7.2. Differensal əmək haqqı sisteminin formalaşdırılması | | | | + | |
| 7.3. Sponsorluq, ianə və donor sisteminin qurulması | | | | + | |
| 7.4. Sertifikat proqramları, dil kursları, hazırlıq kurslarının və digər təlimlərin təşkili | | + | | | |
| 7.5. Biznes qurumları üçün ödənişli konsaltinq xidmətinin təşkili | | | + | | |
| 7.6. BMU-nun həvəsləndirmə və xatirə əşyalarının satışı | | | + | | |
| 7.7. Texnoparkın kirayə, ortaqlıq və s. gəlirləri | | | | + | |
| 7.8. İşçilərin əmək haqlarının ölkənin orta əmək haqqı və əmək bazarının tələbatına uyğun saxlanılmasının təmin edilməsi | | + | | | |

## 6. Gözlənilən nəticələr

Strateji İnkişaf Proqramının icrasından aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

1. Universitetin infrastrukturu təkmilləşdiriləcəkdir;
2. Universitetin təlim-tədris prosesinin beynəlxalq standartlara uyğunluğu istiqamətində addımlar atılacaqdır;
3. Universitetin təhsil mühiti, təhsil şəraiti yaxşılacaq, təhsilin keyfiyyəti artacaqdır;
4. Tələbələrin təlim-tədris prosesinə marağı artacaqdır;

5. Tələbələrin təhsil və sosial şəraiti yaxşılacaqdır;

6. Əmək bazarının tələbatı əsasında müəyyən olunmuş peşə və ixtisaslar üzrə yüksəkixtisaslı kadr potensialının formalaşdırılması imkanları yaranacaqdır;

7. Tələbə kontingentində istedadlı gənclərin və əcnəbi tələbələrin xüsusi çəkisi artacaqdır;

8. Tələbələrin təcrübə mübadiləsi imkanları genişlənəcək, təhsil almış məzunların işlə təminatı yaxşılacaqdır;

9. Universitetin akademik potensialının artırılması istiqamətində addımlar atılacaqdır;

10. Professor-müəllim heyətinin fəaliyyətinin stimullaşdırılması təmin ediləcəkdir;

11. Elmi tədqiqatlar sahəsində milli və beynəlxalq əməkdaşlığının genişlənməsi, keyfiyyətin yüksəlməsi və kommersiyalaşma imkanları genişlənəcəkdir;

12. İş dünyası ilə əlaqələr genişlənəcəkdir;

13. Universitetin fəaliyyətinin maliyyə dayanıqlığı təmin olunacaqdır.

## 7. Bakı Mühəndislik Universitetinin strateji inkişaf proqramının həyata keçirilməsi üzrə

## TƏDBİRLƏR PLANI

| Tədbirin №-si | Tədbirin adı | İcra müddəti | İcraçılar | Nəticələr |
|---|---|---|---|---|
| 1 | **Universitet infrastrukturun təkmilləşdirilməsi üzrə tədbirlər:** | | | |
| 1.1 | Tədris korpuslarının əsaslı təmiri və rekonstruksiyası | 2022 | Rektorluq | Tədris şəraitinin yaxşılaşması |
| 1.2 | Yeni tədris binasının tikintisi | 2020 | Rektorluq | Tədris şəraitinin yaxşılaşması |
| 1.3 | Kitabxana binasının tikintisi və oxuma zallarının təşkili | 2022-2023 | Rektorluq | Fasiləsiz təhsilə və informasiyaya olan tələbatın ödənilməsinə daha yaxşı imkanın yaradılması |
| 1.4 | Kitabxananın elektron kataloqunun sistemləşdirilməsi və yeni texnologiyalar əsasında İRBİS və s. proqramların tətbiqi | 2021 | Rektorluq | Kitabxana oxucuları üçün daha yaxşı xidmətin təşkili |
| 1.5 | Əlavə yataqxana binasının və qapalı idman zalının tikintisi | 2022 | Rektorluq | Tələbələr üçün yataqxana və asudə-sağlamlıq şəraitinin yaxşılaşması |
| 1.6 | Litsey, Kollec və Peşə məktəbinin yerləşdiyi bir kompleksin tikintisi | 2023 | Rektorluq | Universitetə qədər şagirdlərin Litsey, Kollec və Peşə məktəbində hazırlanması və |

| | | | | |
|---|---|---|---|---|
| | | | | universitetə əlavə maliyyə daxilolması |
| 1.7 | Yeməkxananın rekonstruksiyası və istehsalat bazasının genişləndirilməsi | 2021 | Rektorluq | Universitetin yeməkxanasının rekonstruksiyası və istehsalat bazasının genişlənməsi |
| 1.8 | Gənc alimlər və mütəxəssilər üçün xidməti yaşayış evlərinin inşası | 2023 | Rektorluq | Gənc alimlər və mütəxəssilər üçün xidməti yaşayış şəraitinin yaxşılaşması |
| 1.9 | Kampus ərazisində təhlükəsizliyin təmini məqsədi ilə video müşahidə sisteminin təkmilləşdirilməsi | 2020-2021 | Rektorluq | Təhlükəsizliyin daha yaxşı təşkili |
| 1.10 | Elmi-tədqiqat laboratoriyaların təşkili (7 ədəd) | 2020-2023 | Rektorluq | Elmi-tədqiqat fəaliyyətin artırılması |
| 1.11 | İqtisadiyyat və Biznes mərkəzinin qurulması | 2020 | Rektorluq | İqtisadiyyat və Biznes mərkəzi vasitəsilə yeni xidmətlərin təklifi |
| 1.12 | Mühəndislik üzrə elmi-tədqiqat mərkəzinin qurulması | 2021 | Rektorluq | Mühəndislik üzrə elmi-tədqiqat mərkəzi vasitəsilə yeni xidmətlərin təklifi |
| 1.13 | Olimpiada mərkəzinin təşkili (fənn, ixtisas və proqramlaşdırma üzrə) | 2020 | Rektorluq | Olimpiada mərkəzi vasitəsilə yeni xidmətlərin təklifi |
| 1.14 | Beynəlxalq imtahan mərkəzinin qurulması (TOEFL, GRE, GMAT, IELTS, SAT və s.) | 2020 | Rektorluq | Beynəlxalq imtahan mərkəzi vasitəsilə yeni xidmətlərin təklifi |
| 1.15 | Elektron və distant təhsil infrastrukturunun qurulması | 2022 | Rektorluq | Elektron və distant təhsil xidmətlərin təklifi |
| 1.16 | ISO 9001 idarəetmə sisteminin qurulması (hazırlıq, müraciətin edilməsi, monitorinq, İSO sertifikatın alınması) | 2020-2023 | Rektorluq | Universitetin idarəetmə sisteminin beynəlxalq standartlar əsasında qurulması və icrası |
| 1.17 | QS-WUR beynəlxalq reytinqində universitetin yerini 1000+ səviyyəsinə gətirmək | 2020-2021 | Tədris, Elmi və Beynəlxalq əlaqələr üzrə prorektorluq | QS-WUR beynəlxalq reytinqində universitetin yerini 1000+ səviyyəsinə çatması |
| 1.18 | QS-WUR beynəlxalq reytinqində universitetin yerini 800+ səviyyəsinə gətirmək | 2022-2023 | Tədris, Elmi və Beynəlxalq əlaqələr üzrə prorektorluq | QS-WUR beynəlxalq reytinqində universitetin yerini 800+ səviyyəsinə çatması |
| 1.19 | Universitetin yerli akkreditasiyadan keçməsi | 2020 | Rektorluq | Universitetin fəaliyyətinin yoxlanması və akkreditasiya şəhadətnaməsinin |

| | | | | |
|---|---|---|---|---|
| | | | | alınması |
| 1.20 | İxtisasların beynəlxalq akkreditasiyası (3 ədəd) | 2021-2023 | Tədris, Elmi və Beynəlxalq əlaqələr üzrə prorektorluq | Məzunların yerli və xarici əmək bazarında daha yaxşı işlə təmin olunmasına dəstək |
| 2 | **Tədris prosesinin təkmilləşdirilməsi üzrə tədbirlər:** | | | |
| 2.1 | İxtisaslaşmış 6 tədris laboratoriyasının qurulması (30-40 nəfərlik) | 2020-2023 | Rektorluq | Tədrisin keyfiyyətinin artırılması |
| 2.2 | Tələbə qəbulunun hər il 1% artırılması | 2020-2023 | Rektorluq | Təhsilalanların sayının və maliyyə daxilolmalarının artması |
| 2.3 | Professor və Müəllim Heyətinin (bundan sonra - PMH) elmi dərəcə və adların hər il 5 nəfər tərəfindən alınması | 2020-2023 | Elmi işlər üzrə prorektorluq | Universitetin PMH-nin elmi dərəcə və adlar alanların sayının artması |
| 2.4 | İxtisaslaşdırılmış profil üzrə yeni ixtisasların açılması (ən azı 7 ədəd) | 2020-2023 | Rektorluq | Əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadrların hazırlanması |
| 2.5 | “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq istəyən tələblərlə üçtərəfli müqavilələrin bağlanması (ən azı 35 nəfər) | 2020-2023 | Rektorluq | BMU-nun PMH-nin sayının artması |
| 2.6 | “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almış məzunların BMU-da işə qəbulu (ən azı 15 nəfər) | 2022-2023 | Rektorluq | Xaricdə təhsil almış və müdafiə etmiş doktorantların BMU-ya işə qəbulu ilə təhsilin keyfiyyətinin artırılması |
| 2.7 | Tədris prosesində müasir təhsil texnologiyalarının hər il 1% artırmaqla tətbiqi (70%-85%) | 2020-2023 | Rektorluq | Tədrisin keyfiyyətinin müasir təhsil texnologiyaları vasitəsilə artırılması |
| 2.8 | Kvalifikasiyalarının artırılması məqsədi ilə | 2020-2023 | Rektorluq | BMU-nun PMH-nin kvalifikasiyasının artması |

| | | | | |
|---|---|---|---|---|
| | təlimlərə cəlb olunmuş PMH-nin sayının artırılması | | | |
| 2.9 | Tədris proqramlarının təkmilləşdirilməsi, nəticə əsaslı təhsil proqramlarının tətbiqi | 2020-2023 | Rektorluq | BMU-nun tədris proqramlarının təkmilləşməsi |
| 2.10 | Tədris proqramlarına uyğun dərsliklərin hazırlanması (ən azı 50 ədəd) | 2020-2023 | Rektorluq | BMU-nun dərsliklərinin sayının artırılması ilə tədrisin keyfiyyətinin yüksəldilməsi |
| 2.11 | Tədris prosesində müasir təhsil texnologiyalarının tətbiqi (50%-65%) | 2020-2023 | Rektorluq | Tədris prosesinin keyfiyyətinin yüksəldilməsi |
| 2.12 | Tələbələrin praktiki biliklərinin artırılması, ixtisaslardan asılı olaraq praktiki dərslərinin sayının artırılması (15%-30%) | 2020-2023 | Tədris işləri üzrə prorektorluq | BMU-da tələbələrin praktiki biliklərinin və praktiki dərslərinin sayının artırılması |
| 2.13 | Onlayn kursların təşkili | 2023 | Rektorluq | Yeni xidmətin təklifi və maliyyə daxilolmalarının artması |
| 2.14 | Fasiləsiz təhsil sisteminin qurulması | 2023 | Rektorluq | Yeni xidmətin təklifi və maliyyə daxilolmalarının artması |
| 3 | **Elmi-tədqiqat və innovasiya fəaliyyətin inkişaf etdirilməsi üzrə tədbirlər:** | | | |
| 3.1 | Universitetin Texnoparkın nəzdində Texnoloji Transfer və Patent Ofisinin qurulması | 2021 | Rektorluq | Elmi-tədqiqat və innovasiya fəaliyyətinin artması |
| 3.2 | Beynəlxalq elmi jurnallarda məqalə sayının hər il 35 ədəd artırılması | 2020-2023 | Elmi və Beynəlxalq işlər üzrə prorektorluq | Beynəlxalq elmi jurnallarda məqalə sayının artması |
| 3.3 | Dövrü elmi jurnalların beynəlxalq elemetrik bazalara (hər il 2 ədəd) daxil olması | 2020-2023 | Elmi və Beynəlxalq işlər üzrə prorektorluq | PMH-nin elmi-tədqiqat fəaliyyətinin artırılması üçün şəraitin yaxşılaşdırılması |
| 3.4 | “Scopus” platformması, “Science Direct” məlumat bazası və çap məhsullarına çıxış imkanı | 2020-2023 | Elmi və Maliyyə-təsərrüfat işlər üzrə prorektorluq | PMH-nin elmi-tədqiqat fəaliyyətinin artırılması üçün şəraitin yaxşılaşdırılması |
| 3.5 | Beynəlxalq və respublika əhəmiyyətli elmi konfransların təşkili (19 ədəd) | 2020-2023 | Elmi, Beynəlxaql əlaqələr və Maliyyə-təsərrüfat işlər üzrə prorektorluq | Elmi nailiyyətlərin təbliği üçün elmi konfransların təşkili |
| 3.6 | Simpozium və seminarların təşkili (hər il 10 ədəd) | 2020-2023 | Elmi işlər üzrə prorektorluq | Elmi nailiyyətlərin təbliği üçün simpozium və seminarların təşkili |
| 3.7 | İnnovasiya və ixtiraların | 2020- | Elmi və | Elmi nailiyyətlərin və |

| | | | | |
|---|---|---|---|---|
| | patentləşdirilməsi (11 ədəd) | 2023 | Maliyyə-təsərrüfat işlər üzrə prorektorluq | ixtiraların patentləşdirilməsi |
| 3.8 | Beynəlxalq konfranslarda iştirakın maliyyələşdirilməsi (hər il büdcənin 10%-i həcmində) | 2020-2023 | Rektorluq | Beynəlxalq konfranslarda BMU PMH-nin iştirakının və elmi əməkdaşlıqlarının sayının artması |
| 3.9 | PMH-nin monoqrafiya və dərs vəsaitlərin nəşri (21 ədəd) | 2020-2023 | Rektorluq | Monoqrafiya və dərs vəsaitlərin nəşrini artırmaqla tədrisin keyfiyyətinin artırılması |
| 3.10 | Kitabxana fondunun zənginləşdirilməsi (hər il 50 ədəd yeni kitab və nəşrlərin alınması) | 2020-2023 | Rektorluq | Kitabxana fondunun zənginləşməsi |
| 3.11 | Buraxılış və dissertasiya işlərinə ikili elmi rəhbərlik sisteminin tətbiq edilməsi | 2021 | Tədris və elmi işlər üzrə prorektorluq | Tədris və tədqiqat fəaliyyətinin keyfiyyətinin artırılması |
| 3.12 | Fundamental və tətbiqi elmlərin spektrinin genişləndirilməsi | 2022 | Elmi işlər üzrə prorektorluq | Tədqiqat fəaliyyətinin keyfiyyətinin artırılması |
| 3.13 | Elmi Tədqiqat İşlərinin (ETİ) AMEA-nın instutları, layihə təşkilatları, sənaye və digər müəssisələr ilə birgə təşkili (14 ədəd) | 2020-2023 | Rektorluq | Tədqiqat fəaliyyətinin və sənaye ilə əməkdaşlığın yaxşılaşdırılması |
| 4 | **Beynəlxalq əlaqələrinin inkişafı üzrə tədbirlər:** | | | |
| 4.1 | Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrin sayını artırılması (hər il azı 5 ədəd) | 2020-2023 | Beynəlxalq əlaqələr üzrə prorektorluq | Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlığın artması |
| 4.2 | Beynəlxalq mübadilə proqramlarda PMH-nin iştirak sayının artırılması (hər il azı 5 nəfər) | 2020-2023 | Beynəlxalq əlaqələr və Tədris işləri üzrə prorektorluq | BMU-nun PMH-nin peşəkar inkişafının artması |
| 4.3 | Beynəlxalq mübadilə proqramlarda tələbələrin iştirak sayının artırılması (hər il azı 5 nəfər) | 2020-2023 | Beynəlxalq əlaqələr və Tədris işləri üzrə prorektorluq | BMU-nun tələbələrinin təhsilinin keyfiyyətinin artması |
| 4.4 | Beynəlxalq layihələrdə qrant qalibi kimi iştirak sayının artırılması (ən azı 1 ədəd) | 2021-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-nun daha çox qrant layihələrində iştirakı və əlavə maliyyənin cəlb olunması |

| | | | | |
|---|---|---|---|---|
| 4.5 | Beynəlxalq layihələrdə tərəfdaş kimi iştirak sayının artırılması (ən azı 1 ədəd) | 2020-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-nun daha çox qrant layihələrində iştirakı və əlavə maliyyənin cəlb olunması |
| 4.6 | Əcnəbi tələbələrin sayı (hər il 2% artırmaq) | 2020-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-ya daha çox əcnəbi tələbələrin və əlavə maliyyənin cəlb olunması |
| 4.7 | Əcnəbi tələbələrin təmsil etdiyi ölkələrin sayı (hər il 2-3 yeni ölkə artırmaq) | 2020-2023 | Beynəlxalq əlaqələr üzrə prorektorluq | BMU-ya daha çox əcnəbi tələbələrin və əlavə maliyyənin cəlb olunması |
| 4.8 | Beynəlxalq təhsil sərgilərində iştirak (hər il 2-3 ədəd) | 2020-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-nun xidmətlərinin daha çox maraqlı tərəflərə çatdırılması ilə daha çox əməkdaşlıq qurmaqla əlavə maliyyənin cəlb olunması |
| 4.9 | Xarici tərəfdaş universitetlər ilə birlikdə yay məktəblərinin təşkili (hər il 1-2 ədəd) | 2020-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-nun xidmətlərinin daha çox maraqlı tərəflərə çatdırılması ilə daha çox əməkdaşlıq qurmaqla əlavə maliyyənin cəlb olunması |
| 4.10 | “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində beynəlxalq ikili diplom proqramların tətbiqi (hər il 1 ədəd) | 2021-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-ya daha çox tələbələrin və əlavə maliyyənin cəlb olunması |
| 4.11 | Əcnəbi mütəxəssis və ekspertlərin tədris prosesinə cəlb edilməsi (1%-4% həcmində) | 2020-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə | BMU-da tədrisin keyfiyyətinin artırılması |

| | | | | |
|---|---|---|---|---|
| | | | prorektorluq | |
| 4.12 | Əcnəbi professor-müəllim heyətinin iştirakı ilə qrant əsaslı elmi-tədqiqat proqramlarının həyata keçirilməsi | 2020-2023 | Beynəlxalq əlaqələr, Tədris, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-da qrant əsaslı elmi-tədqiqat proqramlarının sayının artması |
| 5 | **Müəssisələrlə Əlaqələr və Karyeranın inkişafı üzrə tədbirlər:** | | | |
| 5.1 | Elektron Məzun Sisteminin qurulması | 2020 | Müəssisələrlə əlaqələr və karyera departamenti | BMU-nun məzunları ilə əlaqələrin daha yaxşı təşkili və əməkdaşlığın artırılması |
| 5.2 | Müəssisələrlə əməkdaşlıq müqavilələrin sayının artırılması (hər il 20%) | 2020-2023 | Müəssisələrlə əlaqələr və karyera departamenti | BMU ilə müəssisələrin əməkdaşlığının artması |
| 5.3 | Məzunlarla iş yerlərində görüşlərin keçirilməsi fəaliyyətinin artırılması (hər il 10%) | 2020-2023 | Müəssisələrlə əlaqələr və karyera departamenti | Məzunlarla əməkdaşlığın və ortaq fəaliyyətin qurulması |
| 5.4 | İş dünyası ilə kafedralar arasında koordinasiya sisteminin qurulması | 2021 | Müəssisələrlə əlaqələr və karyera departamenti və kafedralar | İş dünyası ilə kafedralar arasında ortaq fəaliyyətin yaxşılaşdırılması |
| 5.5 | Müəssisələrdə baza kafedraların yaradılması (2 ədəd) | 2022-2023 | Müəssisələrlə əlaqələr və karyera departamenti və kafedralar | Universitet – sənaye / müəssisə əməkdaşlığının inkişaf etdirilməsi |
| 5.6 | Dissertasiya mövzularının müəyyənləşdirilməsində iş dünyasından sifarişlərin qəbulu (30 ədəd) | 2020-2023 | Müəssisələrlə əlaqələr və karyera departamenti, kafedralar və Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq | İş dünyası ilə universitet arasında daha çox sifarişli xidmətlərin icrası |
| 5.7 | İş tapan məzunların nisbətini artırmaq (55%-70%) | 2020-2023 | Müəssisələrlə əlaqələr və karyera departamenti | İş dünyasının keyfiyyətli kadr ilə təmin olunması |
| 5.8 | BMU Məzun Assosiasiyasının qurulması | 2021 | Müəssisələrlə əlaqələr və karyera departamenti | Məzunlarla işləyən peşəkar təşkilatının qurulması və xidmət göstərməsi |
| 5.9 | İşəgötürənlər-universitet-təhsil alanlar arasında işlək mexanizmin qurulması | 2022 | Müəssisələrlə əlaqələr və karyera | Tələbənin istehsalat təcrübəsi keçməsi və məzunların daha tez iş |

| | | | | |
|---|---|---|---|---|
| | | | departamenti və Təcrübə şöbəsi | tapmasının yaxşılaşması |
| 6 | **Sosial və ictimai fəaliyyətlərin təkmilləşdirilməsi üzrə tədbirlər:** | | | |
| 6.1 | Əməkdaşlar üçün yay istirahət mərkəzinin təsis edilməsi | 2020-2023 | Rektorluq | Əməkdaşların sosial-məişət şəraitinin və istirahət imkanlarının yaxşılaşdırılması ilə əmək məhsuldarlığının artırılması |
| 6.2 | BMU əməkdaşları üçün sosial-mədəni tədbirlərin təşkili (hər il 10 ədəd) | 2020-2023 | Tərbiyə işləri üzrə prorektorluq | Əməkdaşların sosial-məişət şəraitinin və istirahət imkanlarının yaxşılaşdırılması ilə əmək məhsuldarlığının artırılması |
| 6.3 | BMU tələbələr üçün sosial-mədəni tədbirlərin təşkili (hər il 5 ədəd artırmaqla) | 2020-2023 | Tərbiyə işləri üzrə prorektorluq | Tələbələrin sosial-mədəni şəraitinin və istirahət imkanlarının yaxşılaşdırılması ilə tədrisə marağın artırlması |
| 6.4 | Veb saytın təkmilləşdirilməsi | 2020-2023 | Tərbiyə işləri üzrə prorektorluq | BMU-nun fəaliyyətinin daha operativ və bir neçə dildə ictimaiyyətə çatdırılması |
| 6.5 | Korporativ səviyyədə facebook, twitter, instagram, youtube istifadəçilərinin və reklam sayının artırılması (hər il 10%) | 2020-2023 | Tərbiyə işləri üzrə prorektorluq | BMU-nun fəaliyyətinin daha operativ və bir neçə dildə ictimaiyyətə çatdırılması |
| 6.6 | BMU TV  proqram sayının artırılması (hər il 5 ədəd) | 2020-2023 | Tərbiyə işləri üzrə prorektorluq | BMU-nun fəaliyyətinin daha operativ ictimaiyyətə çatdırılması ilə təbliğat-təşviqat fəaliyyətinin artırılması |
| 6.7 | BMU TV-nin fəaliyyətinin gücləndirilməsi, universitet, fakültə, ixtisas və tələbə həyatına yönəlik verlişlərin hazırlanması (hər il 10% artırmaqla) | 2020-2023 | Tədris, Tərbiyə işləri üzrə prorektorluq | BMU-nun fəaliyyətinin, imkanlarının, ixtisasların, tələbələrin nailiyyətlərinin daha operativ ictimaiyyətə çatdırılması ilə təbliğat-təşviqat fəaliyyətinin artırılması |
| 6.8 | Universitetin fəaliyyətinin, açılan yeni ixtisasların daha geniş  auditoriyaya tanıdılm ası istiqamətində davamlı tədbirlərin təşkili (hər il 20 ədəd) | 2020-2023 | Tədris, Tərbiyə işləri üzrə prorektorluq | BMU-nun fəaliyyətinin və yeni ixtisasların ictimaiyyətə çatdırılması ilə təbliğat-təşviqat fəaliyyətinin artırılması |
| 6.9 | İstedadlı gənclərin BMU-ya cəlb edilməsi üçün xüsusi proqramların işlənməsi | 2020-2023 | Tərbiyə işləri üzrə prorektorluq | BMU-nun fəaliyyətinin təbliği ilə istedadlı gənclərin BMU-ya cəlb edilməsi |
| 6.10 | Universitetin professor- | 2020- | Tərbiyə işləri | BMU-nun fəaliyyətinin və |

| | | | | |
|---|---|---|---|---|
| | müəllim heyətinin ümumrespublika televiziya kanallarında və radio verlişlərində iştirakının, çıxışlarının təmin olunması, eləcə də dövri mətbuatda, elektron mediyada yazıların, elmi-publisistik nəşrlərinin sayının artırılması (hər il 5% artırmaq) | 2023 | üzrə prorektorluq | uğurlarının daha operativ ictimaiyyətə çatdırılması ilə təbliğat-təşviqat fəaliyyətinin artırılması |
| 7 | **Maliyyə-iqtisadi fəaliyyətlərin təkmilləşdirilməsi üzrə tədbirlər:** | | | |
| 7.1 | BMU-nun strukturunun və ştatlarının optimallaşdırılması | 2021 | Rektorluq | Daha optimal idarə etmə sisteminin qurulması və icrası |
| 7.2 | Diferensial əmək haqqı sisteminin formalaşdırılması | 2022 | Rektorluq | Əməkdaşların peşəkar fəaliyyətinin stimullaşdırılması ilə Əsas Keyfiyyət Göstəricilərinin (ƏKG/KPI) artırılması |
| 7.3 | Sponsorluq, ianə və donor sisteminin qurulması | 2022 | Rektorluq | BMU-nun maliyyə resurslarının artırılması və səmərəli istifadəsi |
| 7.4 | Sertifikat proqramları, dil kursları, hazırlıq kurslarının və digər təlimlərin təşkili | 2020 | Tədris, Beynəlxalq əlaqələr üzrə prorektorluq və uyğun şöbələr | Yeni xidmətlərin təklifi ilə BMU-nun maliyyə resurslarının artırılması |
| 7.5 | Biznes qurumları üçün ödənişli məsləhət xidmətinin təşkili | 2021 | Rektorluq | Yeni xidmətlərin təklifi ilə BMU-nun maliyyə resurslarının artırılması |
| 7.6 | BMU-nun tanıtım və xatirə əşyalarının satışı | 2022 | Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | BMU-nun maliyyə resurslarının artırılması |
| 7.7 | Texnoparkın kirayə, ortaqlıq və s. gəlirləri | 2022 | BMU Texnopark, Maliyyə-təsərrüfat işləri üzrə prorektorluq və uyğun şöbələr | Texnoparkın fəaliyyətinin yaxşılaşdırılması və BMU-nun maliyyə resurslarının artırılması |
| 7.8 | İşçilərin əmək haqlarının ölkənin orta əmək haqqı və əmək bazarının tələbatına uyğun saxlanılmasını təmin etmək | 2021 | Rektorluq | Əməkdaşların peşəkar fəaliyyətinin stimullaşdırılması ilə Əsas Keyfiyyət Göstəricilərinin (ƏKG/KPI) artırılması |